# “SİZ ANCAQ İSAXANŞÜNAS OLA BİLƏRSİNİZ”

Bu günlərdə Xəzər Universitetinin prorektoru, filologiya elmləri doktoru, yeseninşünas İsaxan İsaxanlının böyük rus şairi Serqey Yeseninin həyat və yaradıcılığına həsr etdiyi növbəti tədqiqat xarakterli “Незадаром ему мигнули очи» kitabını oxudum və etiraf etməliyəm ki, çox da xoşuma gəldi. Nəfis şəkildə nəşr olunan kitabda tanınmış rus şairinin bədii yaradıcılığı müəllif tərəfindən dərin və məzmunlu təhlil edilmişdi. Mən İsaxan müəllimə ərsəyə gətirdiyi bu fundamental kitab barədə ürək sözlərimi ifadə etmək üçün məqam axtararkən,










təsadüfən, bir məclisdə onunla yanaşı oturası oldum. Şübhəsiz, mən rus dili mütəxəssisi, rus ədəbiyyatından çox bəhrələnən, onların bəzilərini, elə Yeseninin özünün də bir neçə şeirini tərcümə edən bir mütəxəssis olaraq, müəllifin bu kitabını yüksək dəyərləndirdiyimi dilə gətirdim və onu təbrik etdim.

İsaxan müəllim də öz növbəsində kitaba verdiyim dəyərə görə mənə təşəkkürünü bildirdi və gülümsünərək dedi:

- Bir alim dostum da məni bu günlərdə təbrik etdi və söylədi ki, sənin kitablarını o qədər oxumuşam, deyəsən, axırda özüm də yeseninşünas olacağam. Mənsə ona söylədim ki, dostum, bu mümkün deyil, siz yeseninşünas ola bilməzsiniz, olsa-olsa, ancaq isaxanşünas ola bilərsiniz...